# QUBADOV ARİF VƏLİŞ OĞLU



Qubadov Arif Vəliş oğlu 20 sentyabr 1966-cı ildə Cəlilabad rayonunun Əliqasımlı kəndində doğulmuşdur. 1983-cü ildə Əliqasımlı kənd orta məktəbini bitirmişdir. 1984-cü ildə Cəlilabad rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Xidmətini SSRİ-nin müxtəlif yerlərində keçmişdir. A.Qubadov 1992-ci ildə Azərbaycana qayıdaraq Milli Ordumuzda xidmət etməyə başladı. 1992-ci ilin iyun ayında Qədim Naxçıvanın Sədərək bölgəsində qanlı döyüşlərdə qəhrəmancasına vuruşurdu. Onun komandir olduğu tabor düşmənin xeyli canlı qüvvəsini və döyüş texnikasını məhv etdi. A.Qubadovun dəstəsi 1993-cü ilin iyun ayında Ağdam rayonuna göndərildi. Rayonun Əfətli, Yusifcanlı kəndlərinin düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə ermənilər geri oturduldu. O, 1993-cü ilin avqustunda öz taboru ilə Füzuli bölgəsinə yollandı. Əhmədbəyli, Aşağı və Yuxan Kürdmahmudlu, Alxanlı kəndləri məhz Arif Qubadovun rəhbərliyi altında düşməndən təmizləndi. O, 1994-cü ildə Tərtər və Ağdərə döyüşlərində də fəal iştirak etdi. Burada da o, öz döyüşkənliyi və rəşadəti ilə fərqləndi. Bu xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Qubadov Arif Vəliş oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. 1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildə isə o, Azərbaycan Respublikası Sərhəd Qoşunları Hərbi Akademiyasına daxil olmuş və 2003-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. A.Qubadov polkovnik-leytenant rütbəsinə yüksəlmişdir. Ailəli idi. İki oğul, iki qız atası idi. Azərbaycanın Milli Qəhrəmanı Arif Qubadov 43 yaşında Türkiyədə müalicə olunduğu Gülhanə Hərbi Tibb Akademiyasında 26 sentyabr 2009-cu ildə vəfat etmiş, doğulduğu Əliqasımlı kəndində dəfn edilmişdir.